# Təhsildə rəqəmsal transformasiya

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində təşkil edilən "Rəqəmsal Bacarıqlar və İnnovativ Tədris Alətləri" mövzusunda təlim, müasir təhsil çağırışlarına cavab verən və innovativ metodlarla dərs keçən müəllimlərin böyük bir qismini əhatə edərək, onların peşəkar inkişafına mühüm töhfə verir. Bu proqram, rəqəmsal təhsil resurslarından səmərəli istifadəni genişləndirmək, müəllimlərin pedaqoji yanaşmalarını yeni texnologiyalar əsasında təkmilləşdirmək və XXI əsrin tələblərinə uyğun interaktiv dərs metodlarını tətbiq etməyə imkan yaratmaq məqsədi daşıyır. Təlimin əsas məqsədi müəllimlərə müasir texnologiyalardan istifadə etməklə innovativ və interaktiv tədris metodlarını mənimsətmək, onların rəqəmsal savadlılığını artırmaq və süni intellekt dəstəyi ilə fərdiləşdirilmiş təhsil mühitlərinin qurulmasına dəstək olmaqdır. Burada müəllimlərin tədris prosesində rəqəmsal mühitin imkanlarından maksimum yararlanması, yeni pedaqoji strategiyaların sınaqdan keçirilməsi və interaktiv öyrənmə metodlarının tətbiqi əsas prioritetlərdəndir. Bundan əlavə, təlim çərçivəsində müəllimlərə rəqəmsal platformalardan istifadə qaydaları öyrədilir, onların birgə əməkdaşlıq vərdişləri formalaşdırılır, fayl idarətməsi və bulud əsaslı iş proseslərinin effektiv şəkildə təşkili bacarıqları inkişaf etdirilir. Təlim müasir dövrün pedaqoji standartlarına uyğun olaraq müəllimlərin metodiki arsenalını zənginləşdirməklə yanaşı, təhsil keyfiyyətinin yüksəldilməsinə də mühüm töhfə verir.



## Müəllimlər üçün "rəqəmsal bacarıqlar və innovativ tədris alətləri" mövzusunda təlim

Təlimin əsas məqsədlərindən biri də müəllimlərin texnoloji savadlılığının artırılması, onların innovativ pedaqoji yanaşmaları mənimsəmələrinə metodik kömək, eyni zamanda, tədris keyfiyyətini yüksəltmək və tələbələrlə daha effektiv ünsiyyət qurulmasına şəraitin yaradılmasıdır. Bu da müasir təhsil sistemində müəllimlərin rəqəmsal bacarıqlarını inkişaf etdirmək və XXI əsrin tələblərinə uyğun tədris strategiyalarını genişləndirmək baxımından əhəmiyyətli bir təşəbbüsdür.

Bu təlimin mühüm komponentləri sırasına xüsusi platformalar vasitəsilə dərsin keyfiyyətini yüksəltmək, tədris prosesinin fərdiləşdirilməsi, dərs planlarının hazırlanması və tələbələrin akademik nailiyyətlərinin daha çevik izlənməsi də daxil edilib. Belə ki, təlim çərçivəsində müəllimlər yalnız rəqəmsal alətlərin texniki imkanlarını öyrənməklə kifayətlənmir, həm də süni intellektin tədris prosesinə inteqrasiyası, eləcə də interaktiv və fərdiləşdirilmiş öyrənmə mühitlərinin yaradılması istiqamətində dərin biliklər əldə edirlər.

Təlim proqramı çərçivəsində müəllimlərə "Microsoft Copilot 365", "LearningApps" və "Magic School AI" kimi qabaqcıl texnoloji həllərlə işləməyi öyrətməklə yanaşı, onların pedaqoji bacarıqlarını da təkmilləşdirir. Müəllimlər həmçinin interaktiv dərs planları hazırlamaq, tələbə iştirakını artırmaq və yeni metodlarla dərsləri daha dinamik və cəlbedici etmək üçün praktik fəaliyyətlərə cəlb olunurlar. Hər bir iştirakçının öz tədris etdiyi fənnə uyğun olaraq süni intellekt dəstəkli və innovativ tədris yanaşmalarını tətbiq etməklə əyani və onlayn formatda təşkil olunan təlimlər bütün təhsil pillələrində çalışan müəllimlər üçün nəzərdə tutulub. Təlimi uğurla başa vuran iştirakçılara sertifikat təqdim ediləcək.